Pakistan İslam Respublikasının COMSATS İslamabad Universitetində təqaüdlə təhsil imkanı

Ümumi məlumat:

Pakistan İslam Respublikasının COMSATS İslamabad Universiteti 2027-ci ilin yaz semestri üçün əcnəbi tələbələr üçün tələbə qəbulu elan edir. Beynəlxalq tələbələr universitetdə magistratura və doktorantura təhsil səviyyələri üzrə təqaüdlə təhsil almaq imkanı əldə edə bilərlər.

Təqaüdün ətraflı təsviri aşağıdakı kimidir:

Təsvir	Məbləğ (ABŞ dolları)	Qeyd
Birdəfəlik qəbul haqqı	100	Tələbə tərəfindən ödənilir.
Hər semestr üzrə qeydiyyat haqqı	25	Tələbə tərəfindən ödənilir.
Semestr üzrə təhsil haqqı (magistratura/doktorantura)	305/332	Təqaüd tərəfindən tam qarşılanır.
Gediş-dönüş aviabilet xərclərinin qarşılanması	-	Seçilmiş namizədlər üçün İƏT/COMSTECH tərəfindən təmin edilir.
Viza, yaşayış yeri, nəqliyyat və gündəlik yaşayış xərcləri tələbə tərəfindən qarşılanır.		

Son müraciət tarixi: 15 noyabr 2026-cı il

Təhsil proqramları, uyğunluq meyarları, qəbul qaydaları, təqaüd imkanları və müraciət prosesi haqqında ətraflı məlumatla COMSATS İslamabad Universitetinin rəsmi internet səhifəsində tanış olmaq mümkündür: CUI International Admissions

Qəbul və təqaüd imkanları ilə bağlı sualları olan tələbələr int.admissions@comsats.edu.pk elektron poçt ünvanına müraciət edə bilərlər.